**Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin**

**Təsviri**

**Azərbaycan Respublikası Prezidentinin 2000-ci il**
**15 iyul tarixli 372 nömrəli Fərmanı ilə TƏSDİQ EDİLMİŞDİR**

Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi (bundan sonra «şəxsiyyət vəsiqəsi» adlandırılacaq) 106 mm x 74 mm ölçülüdür. Beynəlxalq Mülki Aviasiya Təşkilatının 9303-cü sənədlərinə uyğundur.

Şəxsiyyət vəsiqəsinin üz tərəfinin yuxarı sol küncündə Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsviri verilmiş, onun yanında soldan sağa «Azərbaycan Respublikası», onun altında «Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi» sözləri yazılmışdır.

Şəxsiyyət vəsiqəsinin üz tərəfində gerbin alt hissəsində 25 mm x 30 mm ölçülərində fotoşəkil üçün yer qoyulmuşdur.

Şəxsiyyət vəsiqəsində onun seriyası və nömrəsi yazılmışdır.

Şəxsiyyət vəsiqəsinin üz tərəfində «Soyadı», «Adı», «Atasının adı», «Doğulduğu yer və tarix», «Hansı ölkədən gəlib», «Cinsi» sözləri yazılmışdır;

arxa tərəfində, «Ailə vəziyyəti», «Boyu», «Gözlərinin rəngi», «Qan qrupu», «Yaşayış yeri», «Vəsiqəni verən orqan», «Vəsiqənin verilmə tarixi», «Etibarlıdır», «Vəsiqə sahibinin imzası» sözləri yazılmış və möhür üçün yer qoyulmuşdur.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2915.**